Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyasının 28 aprel 2020-ci il tarixli 1 nömrəli Qərarı ilə təsdiq edilmişdir (Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyasının 13 iyun 2023-cü il tarixli 14 nömrəli Qərarı ilə edilmiş əlavə və dəyişikliklər nəzərə alınmaqla).

# Transmilli şirkətlər qrupuna daxil olan Azərbaycan Respublikasının rezidenti olan müəssisənin hesabatının vergi orqanına təqdim edilməsi müddəti, forması və QAYDASI

## 1. Ümumi müddəalar

Bu *Qayda* ~~Qaydalar~~ Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 16.9-cu maddəsinə uyğun olaraq hazırlanmışdır və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr çərçivəsində digər dövlətlərin səlahiyyətli orqanları ilə avtomatlaşdırılmış məlumat mübadiləsinin həyata keçirilməsi məqsədilə transmilli şirkətlər qrupuna daxil olan və Azərbaycan Respublikasının rezidenti olan müəssisə tərəfindən təqdim edilməli hesabatın təqdim edilməsi müddətini, formasını və qaydasını müəyyən edir.

## 2. Əsas anlayışlar

2.0. Bu *Qaydanın məqsədləri üçün* ~~Qaydada~~ istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.0.1. Ölkələrarası hesabat – Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr çərçivəsində digər *dövlətlərin* ~~dövlətin~~ səlahiyyətli orqanları ilə avtomatik məlumat mübadiləsinin həyata keçirilməsi məqsədilə bu Qaydaya uyğun tərtib edilmiş formada transmilli şirkətlər qrupuna daxil olan və Azərbaycan Respublikasının rezidenti olan müəssisə tərəfindən təqdim edilən *və aşağıdakı məlumatı əks etdirən* hesabat forması (1 nömrəli əlavə);

*2.0.1.1. Transmilli şirkətlər qrupunun fəaliyyət göstərdiyi hər ölkəyə münasibətdə gəlirin məbləği, verginin tutulmasından əvvəlki mənfəət (zərər), ödənilmiş mənfəət vergisi, hesablanmış mənfəət vergisi, nizamnamə kapitalı, bölüşdürülməmiş mənfəət, işçilərin sayı və*

*maddi aktivlər (pul və pul ekvivalentində olan vəsaitlər istisna olmaqla) barədə məcmu məlumat;*

*2.0.1.2. Transmilli şirkətlər qrupuna daxil olan hər bir Qrupdaxili müəssisənin identifikasiya məlumatları, o cümlədən Qrupdaxili müəssisənin rezidenti olduğu ölkə və qeydiyyat ölkəsi (rezidenti olduğu ölkədən fərqlidirsə), əsas biznes fəaliyyətinin və ya fəaliyyətlərinin növü;*

2.0.2. Transmilli şirkətlər qrupu - müxtəlif ölkələrdə rezident olan iki və ya daha çox müəssisənin daxil olduğu və ya bir ölkədə rezident olan və başqa ölkədə daimi nümayəndəlik vasitəsilə fəaliyyət göstərən müəssisənin daxil olduğu şirkətlər qrupu. Transmilli şirkətlər qrupuna daxil olan müəssisə dedikdə həmin müəssisə, həmin müəssisənin törəmə və asılı müəssisələri, habelə filial və nümayəndəlikləri nəzərdə tutulur;

*2.0.2-1. Şirkətlər qrupu - mühasibat uçotu prinsiplərinə uyğun olaraq maliyyə hesabatlılığı məqsədləri üçün konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması tələb olunan və ya müəssisələrdən hər hansı birinin səhmləri fond birjasında ticarət ediləcəyi təqdirdə həmin hesabatı hazırlamalı olan, nəzarət və ya sahiblik zənciri vasitəsilə əlaqəli müəssisələrin məcmusu;*

~~2.0.3. Əsas müəssisə - Qrupdaxili müəssisələrdə birbaşa və ya dolayısı ilə iştirak payı və ya səs hüququ 20 faizdən çox olmaqla, rezidenti olduğu ölkədə tətbiq edilən ümumi mühasibatlıq prinsipləri əsasında Transmilli şirkətlər qrupu adından konsolidə edilmiş maliyyə hesabatını təqdim edən və ya rezidenti olduğu ölkədə səhmlərinin fond birjasında alqı-satqısı həyata keçirilən qrupdaxili müəssisə;~~

~~2.0.4. Müvəkkil müəssisə –Transmilli şirkətlər qrupu tərəfindən əsas müəssisəni əvəz edən müəssisə kimi təyin olunan və rezidenti olduğu ölkədə Ölkələrarası hesabatı təqdim edən müəssisə.~~

~~2.0.5. Qrupdaxili müəssisə:~~

~~2.0.5.1. Transmilli şirkətlər qrupunun konsolidə edilmiş maliyyə hesabatında göstəriciləri əks olunan ayrıca müəssisə;~~

~~2.0.5.2. Transmilli şirkətlər qrupuna daxil olan və səhmlərinin fond birjasında alqı-satqısı həyata keçirilən müəssisə;~~

~~2.0.5.3. Bu Qaydanın 2.0.5.1-ci və 2.0.5.2-ci yarımbəndlərində qeyd edilən müəssisənin törəmə və asılı müəssisələri, habelə filial və nümayəndəlikləri.~~

*2.0.3. Əsas müəssisə - Qrupdaxili müəssisələrin birində və ya bir neçəsində birbaşa və ya dolayısı ilə mühüm iştirak payına malik olduğuna görə rezidenti olduğu ölkədə tətbiq edilən ümumi mühasibatlıq prinsipləri əsasında Transmilli şirkətlər qrupu adından konsolidə edilmiş maliyyə hesabatının hazırlanması tələb olunan və ya səhmləri fond birjasında ticarət*

*ediləcəyi təqdirdə rezidenti olduğu ölkədə həmin hesabatı hazırlamalı olan Transmilli şirkətlər qrupuna daxil olan Qrupdaxili müəssisə. Bu halda eyni meyarlara cavab verən Transmilli şirkətlər qrupuna daxil olan digər Qrupdaxili müəssisə mövcud olmamalıdır;*

*2.0.4. Müvəkkil müəssisə – Qaydanın 3.2.1-3.2.3-cü yarımbəndlərində qeyd olunan şərtlərdən ən azı biri tətbiq edildiyi halda, rezidenti olduğu ölkədə Transmilli şirkətlər qrupu adından Ölkələrarası hesabatı təqdim etmək məqsədilə Transmilli şirkətlər qrupu tərəfindən Əsas müəssisəni əvəz edən yeganə müəssisə kimi təyin olunan Qrupdaxili müəssisə;*

*2.0.5. Qrupdaxili müəssisə:*

*2.0.5.1. Maliyyə hesabatlılığı məqsədləri üçün Transmilli şirkətlər qrupunun konsolidə edilmiş maliyyə hesabatında əks olunan və ya səhmləri fond birjasında ticarət ediləcəyi təqdirdə həmin hesabata daxil edilməli olan Transmilli şirkətlər qrupuna daxil olan hər hansı müəssisə;*

*2.0.5.2. Təsnifat və əhəmiyyətlik göstəricilərinə görə Transmilli şirkətlər qrupunun konsolidə edilmiş maliyyə hesabatında əks olunmayan Transmilli şirkətlər qrupuna daxil olan hər hansı müəssisəsi;*

*2.0.5.3. Bu Qaydanın 2.0.5.1-ci və 2.0.5.2-ci yarımbəndlərində qeyd olunan müəssisənin daimi nümayəndəliyi, o şərtlə ki, müəssisə tərəfindən həmin daimi nümayəndəlik üçün maliyyə hesabatlığı, vergi hesabatlığı, tənzimləyici orqanlara təqdim edilən hesabatlar və ya daxili idarəetmə nəzarəti məqsədləri üçün ayrıca maliyyə hesabatı hazırlansın;*

*2.0.5-1. Hesabat təqdim edən müəssisə - bu Qaydanın tələblərinə uyğun olaraq rezidenti olduğu ölkədə Transmilli şirkətlər qrupu adından Ölkələrarası hesabatı təqdim etməli olan Qrupdaxili müəssisə. Hesabat təqdim edən müəssisə qismində Əsas müəssisə, Müvəkkil müəssisə və ya Qaydanın 3.2.-ci bəndində qeyd olunan müəssisə çıxış edə bilər.*

2.0.6. Maliyyə ili - Transmilli şirkətlər qrupunun *Əsas* ~~əsas~~ müəssisəsinin maliyyə hesabatlarının əhatə etdiyi illik mühasibatlıq dövrü;

2.0.7. Hesabat verilən il – Transmilli şirkətlər qrupunun maliyyə *ilinin son günündən* ~~ilindən~~ sonrakı 12 ay;

2.0.8. Səlahiyyətli Orqanlar arasında Razılaşma – Azərbaycan Respublikasının vergi orqanları ilə *beynəlxalq sazişin tərəfləri olan* digər ölkələrin səlahiyyətli orqanları arasında Ölkələrarası hesabatın avtomatik mübadiləsini nəzərdə tutan razılaşma;

*2.0.8-1. Beynəlxalq saziş – xarici ölkələrin səlahiyyətli orqanları ilə vergi məlumatlarının mübadiləsini, o cümlədən avtomatik məlumat mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı 25 yanvar 1988-ci il tarixində Strasburqda imzalanmış və 27 may 2010-cu il tarixli Protokolla düzəlişlər edilmiş "Vergi məsələləri üzrə qarşılıqlı inzibati*

*yardım haqqında" Konvensiya, ikiqat vergitutmanın aradan qaldırılması haqqında ikitərəfli və çoxtərəfli Konvensiyalar və ya Vergi məlumatlarının mübadiləsinə dair Sazişlər;*

2.0.9. Öhdəlikləri yerinə yetirməyən ölkə – Azərbaycan Respublikasının vergi orqanları ilə ~~müvafiq Razılaşma olmasına baxmayaraq~~ *Səlahiyyətli Orqanlar arasında Razılaşmanın qüvvədə olmasına baxmayaraq həmin Razılaşmanın müddəalarında nəzərdə tutulmayan hallarda*, avtomatik mübadiləni dayandıran yaxud *Qrupdaxili* ~~qrupdaxili~~ müəssisəsi Azərbaycanda yerləşən ~~və~~ Transmilli şirkətlər qrupuna dair Ölkələrarası hesabatı Azərbaycan vergi orqanlarına avtomatik təqdim etməli olduğu halda, təqdim etməyən ölkə;

2.0.10. Ölkə - ölkələr və ərazilər.

## 3. Ölkələrarası hesabatın verilməsi öhdəliyi

3.1. Transmilli şirkətlər qrupunun *əvvəlki* maliyyə ilində məcmu gəliri 750 milyon avronun manat ekvivalentindən çox olduqda, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr çərçivəsində digər dövlətlərin səlahiyyətli orqanları ilə avtomatlaşdırılmış məlumat mübadiləsinin həyata keçirilməsi məqsədilə transmilli şirkətlər qrupuna daxil olan və Azərbaycan Respublikasının rezidenti olan müəssisə Transmilli şirkətlər qrupunun ~~həmin~~ maliyyə ilinə dair Ölkələrarası hesabatı bu Qaydanın 5-ci hissəsində göstərilən tarixdən gec olmayaraq vergi orqanlarına təqdim edir. Hesabatın verilməsini şərtləndirən məbləğ həddi Transmilli şirkətlər qrupunun maliyyə hesabatları əsasında müəyyən edilir.

3.2. Azərbaycan Respublikasında Transmilli şirkətlər qrupunun Əsas müəssisəsi və ya Müvəkkil müəssisəsi olmadıqda, onun Azərbaycan Respublikasında yerləşən rezident Qrupdaxili müəssisəsi aşağıdakı şərtlərdən biri olduqda bu Qaydanın 5-ci hissəsində göstərilən tarixdən gec olmayaraq *Azərbaycan* ~~Azərbaycanın~~ Respublikasının vergi orqanına Ölkələrarası hesabatı təqdim etməlidir:

3.2.1. Transmilli şirkətlər qrupunun Əsas müəssisəsi və ya Müvəkkil müəssisə özünün rezident olduğu ölkədə Ölkələrarası hesabatın verilməsi öhdəliyini qanunvericiliyə əsasən daşımadıqda;

3.2.2. Əsas müəssisənin və ya Müvəkkil müəssisənin rezidenti olduğu ölkə *Azərbaycan* ~~Azərbaycanın~~ Respublikasının da tərəfdar çıxdığı beynəlxalq müqaviləyə qoşulmasına baxmayaraq Ölkələrarası hesabatın təqdim edilməsi üçün bu Qaydanın 5-ci hissəsində göstərilən tarixə qədər Azərbaycan Respublikasının vergi orqanları ilə Səlahiyyətli Orqanlar arasında Razılaşması olmadıqda və ya;

3.2.3. Əsas müəssisənin və ya Müvəkkil müəssisənin rezidenti olduğu ölkə tərəfindən öhdəliklərin yerinə yetirilməməsi barədə Azərbaycan Respublikasının vergi orqanları tərəfindən Azərbaycanda rezident olan Qrupdaxili müəssisəyə məlumat göndərildikdə.

3.3. Transmilli şirkətlər qrupunun Azərbaycan Respublikasında rezident olan birdən çox Qrupdaxili müəssisəsi olduğu halda, bu Qaydanın 3.2-ci bəndi nəzərə alınmaqla, Transmilli şirkətlər qrupu həmin müəssisələrdən birini Ölkələrarası hesabatı təqdim etmək üçün təyin ~~edilməlidir~~*etməlidir*.

3.4. Transmilli şirkətlər qrupuna daxil olan Müvəkkil müəssisə transmilli şirkətlər qrupunun adından hesabatı bu Qaydanın 5-ci hissəsi ilə müəyyən edilmiş tarixdən gec olmayaraq təqdim etdikdə və aşağıdakı şərtlər, olduğu halda Qrupdaxili müəssisədən Ölkələrarası hesabatın təqdim edilməsi tələb edilmir:

3.4.1. Müvəkkil müəssisənin rezidenti olduğu ölkə Ölkələrarası hesabatın göndərilməsini tələb etdikdə;

3.4.2. Müvəkkil müəssisənin rezidenti olduğu ölkə ilə *Azərbaycan* ~~Azərbaycanın~~ Respublikasının vergi orqanları arasında *bu Qaydanın 5-ci hissəsində göstərilən tarixə qədər qüvvədə olan* Səlahiyyətli Orqanlar arasında Razılaşma olduqda;

3.4.3. Müvəkkil müəssisənin rezidenti olduğu ölkə tərəfindən "öhdəliklərin yerinə yetirilməməsi barədə" Azərbaycan Respublikasının vergi orqanlarına məlumat göndərilmədikdə;

3.4.4. Digər ölkədə yerləşən Qrupdaxili müəssisə Müvəkkil müəssisə olması barədə bu Qaydanın 4.0.1-ci yarımbəndinə əsasən rezident olduğu ölkəyə bildiriş göndərdikdə və;

3.4.5. Azərbaycan Respublikasının rezidenti olan Qrupdaxili müəssisə bu Qaydanın 4.0.2-ci yarımbəndinə uyğun olaraq *Azərbaycan* ~~Azərbaycanın~~ Respublikasının vergi orqanlarına bildiriş göndərdikdə.

## 4. Transmilli şirkətlər qrupuna daxil olan müəssisə tərəfindən vergi orqanına təqdim edilməli Bildiriş

4.0. Azərbaycan Respublikasının rezidenti olan və Transmilli şirkətlər qrupuna daxil olan Əsas müəssisə, Müvəkkil müəssisə və ya Qrupdaxili müəssisə Hesabat verilən ilin 30 iyun tarixinədək bu Qaydaya əlavə edilən bildirişi (2 nömrəli əlavə) elektron ərizə vasitəsi ilə Azərbaycan Respublikasının vergi orqanlarına təqdim edir:

4.0.1. Əsas müəssisə və ya Müvəkkil müəssisə olub-olmaması barədə;

4.0.2. Əsas müəssisə və ya Müvəkkil müəssisə olmadığı halda, müvafiq hesabatı verməli olan müəssisənin təyin edilməsi və rezidentliyi barədə.

4.0.3. Transmilli şirkətlər qrupunun maliyyə ili barədə.

## 5. Ölkələrarası Hesabatın təqdim edilmə vaxtı

5.1. Ölkələrarası hesabat vergi orqanına Hesabat verilən ilin sonunadək təqdim edilir.

5.2. Əvvəlki hesabat dövrləri üzrə dəqiqləşmənin aparılması zəruri olduğu hallarda dəqiqləşmiş hesabat səyyar vergi yoxlamasının başlanıldığı günədək təqdim edilir.